Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Türk dövlətlərinin inteqrasiya prosesinin sürətlənməsində mədəniyyət faktoru ön plana çıxır

**Son dövrlərdə türk dünyasının inteqrasiyası mövzusu türkdilli məkanın yüksək dairələrində ən çox müzakirə olunan mövzuya çevrilib. Şübhəsiz ki, bu cür inteqrasiya iqtisadi, siyasi və sosial plan düzgün həyata keçirilərsə, kifayət qədər yaxşı nəticələr verə bilər.**

Artıq qeyd edilən istiqamətlər üzrə mühüm addımlar atılıb, nəticədə inteqrasiyanın başlanğıcı üçün yaxşı təməllər yaradılıb. Lakin inteqrasiyanın iqtisadi, siyasi və sosial tərəfləri ilə yanaşı, xüsusi nəzərə alınmalı tərəflərindən biri mədəni məsələlərlə bağlıdır. Etiraf edilməlidir ki, son vaxtlara kimi türk dünyası arasında mədəniyyətlərarası əlaqələr diqqətdən kənarda qalıb. Amma artıq inteqrasiyada bu məqama da xüsusi diqqət yetirmək vacibdir, çünki mədəniyyət insan, toplum həyatının əsas tərkib hissəsidir.

### Zəngin mədəniyyət, yüksək tolerantlıq türk birliyinin möhkəmlənməsinin təməl daşlarından biridir

Azərbaycanın yanaşması bundan ibarətdir ki, türk ölkələrinin inteqrasiya prosesində mədəniyyət faktoru da əsas diqqət mərkəzində yer almalıdır. Yeri gəlmişkən qeyd edək ki, bu məsələ Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə səfəri fonunda başlıca müzakirə predmetlərindən biri olub. Əldə edilən razılıqlardan belə bəlli olur ki, türkdilli ölkələr mədəni müstəvidə əlaqələri daha da dərinləşdirəcəklər. Bununla bağlı Prezident İlham Əliyevlə mətbuta birgə bəyanatla çıxışı zamanı Kasım-Jomart Tokayev qeyd edib: "Gündəlikdə duran mədəni-humanitar məsələlər birgə səylərlə zənginləşir, bu da, əlbəttə, xalqlarımızın daha da yaxınlaşmasına kömək edir. Mən ölkəmizdə Azərbaycan mədəniyyəti ongünlüyünün keçirilməsi barədə təşəbbüs irəli sürdüm. Bu tədbirin populyarlığına heç bir şübhəm yoxdur, çünki xalqımız Azərbaycan mədəniyyəti üçün, sizin görkəmli incəsənət xadimləri üçün darıxıb".

Bu tədbirin baş tutacağına və uğur qazanacağına əminliyini bildirən Qazaxıstan Prezidenti qeyd edib: "Bundan başqa, biz ölkələrimiz arasında mədəniyyət xadimlərindən ibarət nümayəndə heyətlərinin mübadiləsini həyata keçirmək barədə razılığa gəldik. Biz minnətdarıq ki, Sumqayıt şəhərində küçələrdən biri qazax xalqının görkəmli nümayəndəsi Əhməd Baytursınovun adını daşıyır. Əlamətdar haldır ki, Əhməd Baytursınov 1926-cı ildə məhz burada, Bakı şəhərində keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayının nümayəndəsi olub. Mənim fikrimcə, bu fakt bir daha göstərir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələr həmişə çox sıx olub". Qeyd edək ki, türk dünyasında yer alan sivilizasiyanın formalaşması bu məkanda xalqların inkişaf xüsusiyyətlərini müəyyən edən iki prinsipin - Avropa və Asiya prinsiplərinin qarşılıqlı təsiri fonunda baş verib. Əsrlər boyu bu ərazidə müxtəlif etnik qruplar, müxtəlif mədəniyyətlər qarşılıqlı əlaqədə olub. Ən əsası isə bu məkanda mövcud olan etnik qruplar zəngin mədəniyyətlərarası münasibətlər tarixinə malikdir. Türklərin çoxəsrlik tarixin əsasında dini dözümlülük, qarşılıqlı birgəyaşayış prinsipləri



formalaşıb. Üstəlik, hər bir xalq başqa xalqlarla qarşılıqlı əlaqə nəticəsində mədəniyyətini özünəməxsus şəkildə zənginləşdirib. Beləliklə, mədəni inteqrasiya müasir sistemin formalaşmasından çox əvvəl başlayıb. Burada xüsusi vurğulanmalı bir sıra digər nüanslar da mövcuddur. Bəllidir ki, son vaxtlar qlobal miqyasda millətlərarası münasibətlər xüsusilə kəskin xarakter alıb. Hətta eyni kökə malik xalqlar arasında bunu görmək olar. Qeyd edilənlərin ən real təsdiqi Rusiya-Ukrayna münaqişəsi fonunda özünü büruzə verir. Bu iki slavyan xalqı indi biri-birinə düşmən kəsilib. Lakin türk dünyası millətlərarası münasibətlər baxımından nümunə hesab edilə bilərlər. Bu da onların mədəni müstəvidə də inteqrasiyasını asanlaşdırır.

### Türk mədəniyyətinin üfüqləri dünya miqyasında daha sürətlə genişlənir

Türk dövlətləri arasında tarixi fərqlərlə yanaşı, ümumi təhsil, elmi-texniki tərəqqinin səviyyəsi və digər bu kimi sosial fərqlər də mövcuddur. Bu cür fərqlərin inteqrasiya prosesində çox asanlıqla aradan qaldırılmasında hansısa ciddi, kəskin problem mövcud deyil. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir.

Hesab edilir ki, türk dünyasının inteqrasiyası layihəsinin müəllifləri bu ərazidə mövcud xalqların qarşılıqlı əlaqəsinin zəngin tarixi təcrübəsinə daim xüsusi diqqət etməli, ilk növbədə mədəniyyətlərarası yaxınlaşmanın sürətlənməsi barədə daha çox düşünməlidirlər. Bu qəbildən olan məsələlərin həllində həlledici amil təbii ki, inteqrasiyaya qərar vermiş dövlətlərin elitasının həyata keçirəcəyi siyasət olacaq. Əməkdaşlıq, müasirləşmə, elmi məkanın sinxronlaşdırılması mədəniyyətlərarası yaxınlaşmanın da açarıdır. Bunun üçün Türk Dövlətləri Təşkilatı (TDT) kimi mühüm bir platforma var. Bu qurumun əslində uğurlu fəaliyyəti onun sosial və mədəni təməllər üzərində öz işini qurmasıdır. Təşkilata üzv ölkələrin biri-birilə mədəni əlaqələri hər zaman yüksək səviyyədə olub. Hazırda da bu əlaqələr daha dinamik olan yüksələn xətt üzrə davam etdirilir. Bu mənada TÜRKSOY da türkdilli dövlətlər arasında mədəni əlaqələrin inkişafına əhəmiyyətli töhfələr verir. Bu möhtəşəm qurumun çərçivəsində həyata keçirilən tədbirlər, möhkəmlənən əməkdaşlıqlar da türk dövlətlərinin birliyi üçün formalaşdırılan ümumi geostrateji mənzərənin tərkib hissəsidir. Təşkilatın əsas məqsədi türk dövlətləri arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Bura mədəni müstəvi də daxildir. Xatırladaq ki, TÜRKSOY türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir. Türk Mədəniyyət və Miras Fondu da mədəni əlaqələrin genişlənməsinə getdikcə daha böyük töhfələr verməyə başlayır. Türk Mədəniyyət və Miras Fondunun qərargahının Bakıda yerləşməsi ölkəmizin türk dünyasının inteqrasiyasına mədəniyyət faktoruna verdiyi böyük önəmin konkret təzahürdür. Onu da qeyd edək ki, türkdilli dövlətlər regionda öz aralarında əməkdaşlıq etməklə bərabər, başqa ölkələrlə də dostluq və qarşılıqlı anlaşma şəraitində münasibətlərini inkişaf etdirirlər. bura difər sahələrlə yanaşı, mədəniyyət sferası da daxildir. Türk Şurası və TÜRKPA kimi beynəlxalq təşkilatlar bu prosesdə öz rolunu oynayır, türk mədəniyyətinin üfüalərinin genişlənməsinə böyük töhfələr verirlər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**